medinex

# 2 | 3 | 4
## NOYABR 2023
**BAKI EKSPO MƏRKƏZİ**

SƏRGİSİ İLƏ BİRLİKDƏ

Beauty Azerbaijan



3-cü Azərbaycan Beynəlxalq

# TİBB İNNOVASİYALARI SƏRGİSİ

Təşkilatçılar

ceo caspian event organisers | caspian event management | icaevents

www.medinex.az

medinex_azerbaijan  MedinexAzerbaijan  #Medinex




**Medinex** – Azərbaycanda tibb və səhiyyə sahələrini əhatə edən yeganə və ən mühüm kompleks tədbir, həmçinin istehsalçılar, distributorlar və sahə mütəxəssislərinin görüş yeridir. **Medinex** sərgisi Beauty Azerbaijan – Azərbaycan Beynəlxalq Gözəllik İndustriyası Sərgisi ilə birgə keçirilir.








medinex

Beauty Azerbaijan

## DƏSTƏK

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

## SPONSOR

ZEYTUN PHARMACEUTICALS

## RƏSMİ MEHMANXANALAR

HYATT REGENCY BAKU

ibis

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

GREENWICH TRAVEL CLUB

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ EXPO MONTAGE

## İNFORMASİYA TƏRƏFDAŞLARI

1NEWS.AZ

AZƏRTAC

## İNFORMASİYA DƏSTƏYİ

AiləHəkimi – ELMİ-KÜTLƏVİ TİBBİ JURNAL

Alo, həkim – analitik tibbi jurnal

THE ARAB HOSPITAL MAGAZINE

Beauty Türkiye

Dental News

HOSPITALS

КАЗАХСТАНСКИЙ ФАРМАЦЕВТИЧЕСКИЙ ВЕСТНИК

LabMedya – TURKEY'S LABORATORY MAGAZINE

MEDICAL BUYER

Medical News

MEDICAL TOURISM

medikal teknik

MEDIWORLD Middle East

Pharma Türkiye

PACKWORLD TÜRKİYE

СЫРЬЕ & УПАКОВКА – WWW.COSMETIC-INDUSTRY.COM

ПОРТАЛ & ЖУРНАЛ – space HEALTH – ПРОСТРАНСТВОЗДОРОВЬЯ.РФ

## İNTERNET DƏSTƏYİ

abc.az

apa – xəbərimiz var

az ibb.az – AZƏRBAYCANIN SƏHİYYƏ XƏBƏR PORTALI

CABINET

COSMETOLOGY-INFO.RU

eBeautyPlace

HSI – Health & Science Initiatives

iticket.az

LABEPEDIA – www.labepedia.com

lent.az

medelement – медицинская платформа

МЕДВЕСТНИК – ПОРТАЛ РОССИЙСКОГО ВРАЧА

ona – onlayn xəbər agentliyi

PRO BEAUTY SPACE

ROCKVELL

Ruhim.ru – информационно-новостной портал о бытовой химии

TopMedClinic – First Medical Expert

UPTODATE IN MEDICINE

vesti.az

# SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

2 noyabr 2023-ci il tarixində Bakı Ekspo Mərkəzində 3-ü Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları **«Medinex 2023»** və 3-ü Azərbaycan Beynəlxalq Gözəllik İndustriyası **«Beauty Azerbaijan 2023»** sərgilərinin rəsmi açılışı keçirilib.









## AÇILIŞ MƏRASİMİNİN İŞTİRAKÇILARI:

- **Teymur Musayev**
  Azərbaycan Respublikasının Səhiyyə Naziri
- **Əhliman Əmiraslanov**
  Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri
- **Zaur Əliyev**
  İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri
- **Vüqar Qurbanov**
  TƏBİB-in icraçı direktoru
- **Fərid Məmmədov**
  «Caspian Event Organisers» şirkətinin baş direktoru

# RƏSMİ QONAQLARIN RƏYLƏRİ



Bu sərgi tibb sahəsində ənənəvi layihələrin möhtəşəm davamıdır və nazirlik sənaye mütəxəssisləri və ekspertlərini, biznes nümayəndələrini və tibblə bağlı bütün təşkilatları bir platformada toplayan bu beynəlxalq tədbiri hər cür dəstəkləyir.

**Teymur Musayev**
Azərbaycan Respublikasının Səhiyyə Naziri

---



Sərgi, şübhəsiz ki, dövlət və özəl tibb müəssisələrinin maddi-texniki bazasının inkişafında mühüm rol oynayır.

**Əhliman Əmiraslanov**
Azərbaycan Respublikası Milli Məclisinin
Səhiyyə komitəsinin sədri

---



"Medinex" sərgisi təşkil olunduğu vaxtdan bu günədək yerli və xarici şirkətlər, dövlət müəssisələri arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi üçün əhəmiyyətli beynəlxalq platformaya çevrilib.

**Zaur Əliyev**
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin idarə
Heyətinin sədri

---



İctimaiyyətin tibb sahəsindəki yeniliklər barədə məlumatlandırılmasında, müasir tendensiyaların öyrənilməsində və tibb elminin müasir nailiyyətlərinin praktiki tətbiqində bu sərginin böyük əhəmiyyəti var. Sərgi ölkə əhalisinin sağlamlığının qorunması istiqamətində tətbiq olunacaq yenilikləri təqdim etmək üçün önəmli hadisədir.

**Vüqar Qurbanov**
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB)
icraçı direktoru

# SƏRGİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏ TƏŞVİQATI VƏ KİV İŞIQLANDIRILMASI

OKTYABRIN 31-DƏ «HYATT REGENCY BAKU» OTELİNDƏ «MEDINEX» 2023 və «BEAUTY AZERBAIJAN» 2023 SƏRGİLƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR.




**Mətbuat konfransında iştirak etmişlər:**



**Aynurə Əhmədova**
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri



**Zamirə Ədilova**
TƏBİB-in İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentinin rəhbəri



**Fərrux Əhmədov**
«Medinex» və «Beauty Azerbaijan» sərgilərinin layihə rəhbəri

## MƏTBUAT KONFRANSINDA İŞTİRAK EDƏN KİV NÜMAYƏNDƏLƏRİ:

AZTV, ARB 24, CBC TV, Səhiyyə TV, ATV, Real TV, Azertac News Agency, Trend News Agency, Report Agentliyi, Sputnik Agentliyi, Apa TV, Baku TV, Alo, həkim, Haqqin.az, Aztibb.az, HSI (Health & Science Initiatives), Operativ 24, Sia.az, Dogru.az, Yeni avropa və başqaları.

# SƏRGİNİN İNFORMASİYA DƏSTƏYİ

**203**
xəbər **103**
xəbər portalında

**30**
xəbər **22**
qəzet və jurnalda də

**9**
süjet **5**
kanalda

## ÇÖL REKLAMI

- Transparantlar
- Bilbordlar
- Monitorlar
- Posterlər
- Rollaplar










## BİRBAŞA GÖNDƏRİŞLƏR

İxtisaslaşdırılmış məlumat bazası üzrə elektron poçt vasitəsi ilə göndərişlər

Tərəfdaşların, dövlət strukturların və assosiasiyaların məlumat bazaları üzrə elektron poçt vasitəsi ilə göndərişlər

Məlumatın ixtisaslaşdırılmış nəşrlərdə, ixtisaslaşdırılmış saytlarda və sosial şəbəkələrdə yerləşdirilməsi

# MEDINEX 2023 və BEAUTY AZERBAIJAN SƏRGİLƏRİNİN ZİYARƏTÇİLƏRİ

**6000** yaxın ziyarət sayı

**4499** unikal ziyarətçilərin sayı

## medinex

- Dövlət səhiyyə qurumlarının nümayəndələri
- Səhiyyənin müxtəlif sahələrinin mütəxəssisləri
- Tibbi assosiasiyaların nümayəndələri
- Tibb sektorunu təmsil edən sahibkarlar və şirkət rəhbərləri
- Aptek rəhbərləri
- Dövlət və özəl tibb müəssisələrinin baş həkimləri
- Tibb müəssisələrində satınalma şöbələrinin rəhbərləri
- Tibbi və laboratoriya avadanlıqların distribütorları
- Əczaçılıq şirkətlərinin nümayəndələri
- Elm işçiləri
- Tibbi tədris müəssisələrinin müəllimləri
- Diplomatik korpus

## Beauty Azerbaijan

- Estetik mərkəz və kosmetoloji klinikaların rəhbərləri və təchizat üzrə menecerləri
- Gözəllik salonların rəhbərləri və təchizat üzrə menecerləri
- Fitnes mərkəzlərinin rəhbərləri və təchizat menecerləri
- Supermarketlər şəbəkələrinin rəhbərləri və təchizat menecerləri
- Kosmetik məhsullar və gigiyenik vasitələrin distribütorları
- Gözəllik industriyasının mütəxəssisləri
- Diyetoloqlar
- Kosmetoloqlar
- Manikür və pedikür ustaları
- Saç ustaları
- Vizajistlər
- Əczaçılar
- Fitnes üzrə mütəxəssislər

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ Medinex



Tibb sahəsindəki yenilikləri öyrənmək üçün daim bu cür tədbirlərə qatılırıq. Sərgilərdə iştirak təcrübəsinə malik olduğum üçün sizi əmin edə bilərəm ki, yerli layihələrin və forumların təşkilindən həmişə məmnunuq. Ziyarətçilər üçün həmişə tərəfdaş tapmaq, xidmətlər və məhsullarla birbaşa tanış olmaq, bazarımız üçün nə qədər effektiv və etibarlı olduqlarını müqayisə etmək perspektivi var.

**Asif Yusibov**
Darvin Medical şirkətinin təsisçisi

---



«Medinex» sərgisi keçirilməsinin vacibliyini bir daha göstərdi. Daim yenilənən məlumatları müxtəlif mənbələr vasitəsilə əldə etmək həmişə mümkün olmur. Sərgidə bütün lazımi məlumatlar vahid məkanda - stendlərdə, panel müzakirələrində, həmkarlar ilə peşəkar ünsiyyətdə toplanır. Canlı ünsiyyət sərgilərin digər ünsiyyət vasitələrindən mübahisəsiz üstünlüyüdür.

**Feyruz Verdiyev**
Binəqədi Tibb Mərkəzinin cərrahiyyə şöbəsinin müdiri

---



«Medinex» sərgisi, şübhəsiz ki, yerli tibb sənayesi üçün vacibdir. Sərgi ölkədə və dünyada tibbin inkişaf tempi, işgüzar əlaqələrin yaradılması və əməkdaşlığın qurulması barədə xeyli məlumat əldə etmək imkanı verir. Təəssüf ki, bəzi yerli şirkətlər məhsullarını tanıtmaqda sərgilərin vacib rolunu tam başa düşmür. Serginin müsbət tərəfi həmişə peşəkar şaquli əlaqələrin gücləndirilməsidir, çünki burada müəllimlərinizlə, keçmiş həmkarlarınızla, tələbələrinizlə görüşmək fürsəti təmin edilir.

**Yaqut Lətifova**
Baku Medical Plaza, nevroloq

---



Təqdimatın keyfiyyətinə, stendlərə görə Bakı sərgisi Avropa səviyyəsinə uyğundur. Təcrübəmə görə, tibb sərgilərini həkimlərin özlərindən çox kommersiya şirkətlərinin nümayəndələri ziyarət edirlər. «Medinex» sərgisinin digər bir fərqləndirici xüsusiyyəti burada tibb müəssisələrinin işçilərinin olmasıdır. Düşünürəm ki, buna sərginin müxtəlif mövzularda panel sessiyalarını əhatə edən işgüzar proqramı imkan yaradır.

**Olqa Sokolova**
«Heksa – tibbi məhsullar» TM Departamentinin direktor müavini

---



Mən dəfələrlə yerli və xarici sərgilərdə iştirak etmişəm, ona görə də analitik təcrübəm var və bu tədbirlərin təşkili ilə bağlı geniş şərh verə bilərəm. Mənim üçün sərgilər hər hansı sahənin müasir və ən yaxşı yeniliklərini təqdim etmək üçün əsas yerdir. Və «Medinex» bu baxımdan gözləntilərimi doğrultdu! Eyni zamanda, sərginin işində yerli şirkətlərin daha geniş iştirak etməsini istərdim. Onlar mövcuddur və nümayiş etdirəcəkləri çox şey var. Düşünürəm ki, sərgi təkcə startapların deyil, həm də bazarın daimi iştirakçılarının məhsullarını tanıtmaqda faydalı olardı.

**Samir Allahverdiyev**
Naftalan Mərkəzi Şəhər Xəstəxanasının direktoru

---



Dünyanın bir çox sərgilərinin ziyarətçisi nöqteyi-nəzərindən danışıram: «Medinex»də məni iki amil çox təəccübləndirdi və sevindirdi. Birincisi, sərgidə həm iştirakçılar, həm də hər şeydən əvvəl yerli şirkətlər tərəfindən fəallıq və ölkənin tibb ictimaiyyətinin «Medinex»ə göstərdiyi maraq. Əlbəttə ki, avadanlıqların, dərman preparatlarının istehsalı və tibbi xidmətlərin göstərilməsində xarici təcrübə vacibdir. Lakin Azərbaycan təşkilatlarının və şirkətlərinin eyni dərəcədə yüksək keyfiyyətli mal və xidmətləri təqdim etməsi çox xoş bir faktdır. Diqqət yetirdiyim ikinci vacib məqam sərgi çərçivəsində keçirilən işgüzar proqram idi və bu proqram aparıcı ekspert və mütəxəssislərin tibbin ən aktual məsələləri üzrə bilik və təcrübələrini bölüşdükləri sessiyalar və panel müzakirələrini əhatə edirdi. Deyə bilərəm ki, biz də gələcəkdə sərgidə iştirak etməyə və ən yaxşı təcrübələrini bölüşmələri üçün sərgiyə Avropanın tanınmış professorlarını, həkimlərini və şirkət nümayəndələrini dəvət etməyə hazırıq.

**Elşən Ağayev**
Lor həkimi (Almaniya)

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ
## Beauty



Düşünürəm ki, sərgilərin keçirilməsi zəruridir. Sərgilər, ilk növbədə, çoxvektorlu peşəkar ünsiyyəti təmin edir, burada vahid məkanda oxşar məhsullar istehsal edən müxtəlif firmalarla tanış olmaq və ya onlara xidmətlərimizi təklif etmək imkanı əldə edirik. Şirkətimiz tez-tez bu cür tədbirlərdə iştirak edir. Gələn il sərgiyə iştirakçı kimi qatılmağı və öz stendimizi Azərbaycanda təqdim etməyi planlaşdırırıq.

**Yuri Kral**
Albertina şirkətinin (Çexiya) satış meneceri



Yeni qarşılıqlı faydalı tərəfdaşlar tapmaq məqsədilə «Beauty Azerbaijan» sərgisinə gəlmişik. Azərbaycana gətirdiyimiz bütün brendlərlə əvvəlcə sərgilərdə tanış oluruq. Bu çox rahatdır, çünki malı vizual olaraq görə, məhsulları sınaya, istehsalçılarla birbaşa əlaqə yarada bilərsiniz. İstərdim ki, «Beauty Azerbaijan» sərgisi inkişaf etsin və orada daha çox eksklüziv məhsullar təqdim olunsun.

**Valentina Vəliyeva**
Lab 151 şirkətinin təsisçisi



Sərgi həmişə irəliyə doğru hərəkət, inkişaf və irəliləyişdir. Ən başlıcası, «Beauty Azerbaijan» sərgisi mənə müxtəlif şirkətlərin məhsullarına canlı toxunmaq imkanı verdi. Bizim sahəmiz belədir ki, reklamlara etibar etmək hər zaman doğru deyil. Gözəllik sənayesinin istənilən məhsulunu «əl ilə yoxlamaq», öz üzərinizdə sınaqdan keçirmək lazımdır. Ona görə də biz peşəkarlara bu sərgi daha da böyük həcmdə, daha çox iştirakçı ilə lazımdır.

**Olqa Mustafayeva**
Moon Full Gel Polish şirkətinin
Azərbaycandakı nümayəndəsi

# SƏRGİLƏRİN İŞTİRAKÇILARI

**100** İŞTİRAKÇILARIN SAYI

**14** ÖLKƏLƏRİN SAYI

**2248** kv.m. SƏRGİ SAHƏSİ

## İŞTİRAKÇI ÖLKƏLƏR:

- AZƏRBAYCAN
- ALMANİYA
- BELARUS
- CƏNUBİ KOREYA
- ÇİN
- ƏLCƏZAİR
- FRANSA
- İTALİYA
- MALAYZİYA
- MİSİR
- QAZAXISTAN
- QƏTƏR
- RUSİYA
- TÜRKİYƏ

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ MEDINEX



Düşünürəm ki, «Medinex Azerbaijan» sərgisində şirkətlərin iştirakı çox vacibdir. Biz yalnız məhsul və avadanlıqlarla vizual olaraq tanış olmuruq, həm də bizi maraqlandıran şirkətlərin satış menecerləri və rəhbərləri ilə məsləhətləşirik. Bu çox vacibdir, çünki gündəlik həyatda təəssüf ki, bu və ya digər dövlət qurumlarının və böyük şirkətlərin rəhbərləri ilə görüşmək həmişə mümkün olmur. Sərgi bizə görüş təyin etmədən onlarla söhbət etmək imkanı verir. Bir çox tanınmış klinikaların mütəxəssisləri artıq stendimizə baş çəkmiş, avadanlıqlarla tanış olmuşdur. Əminəm ki, «Medinex Azərbaycan» sərgisi tibbi avadanlıq bazarında irəliləyişimizə əhəmiyyətli təsir göstərəcək!

**Jalə Məmmədova**
ASMEDİCAL, Satış və marketinq direktoru (Azərbaycan)

---



Artıq ikinci ildir ki, bu sərgidə iştirak edirik və sərgini çox bəyənirik. Gələn il də sərgidə iştirak etməyi planlaşdırırıq. Azərbaycanın və MDB-nin böyük bazarı bizim üçün son dərəcə önəmlidir. İsrail şirkətiyik və Azərbaycanda olmaqdan böyük məmnunluq duyuruq.

**Ramal Şalmiyev**
Biopharmax AFEZCO, İcraçı direktor (Azərbaycan)

---



«Medinex» sərgisində ilk dəfədir ki, iştirak edirik. Özümüzü səhiyyə sahəsinin spesifik sektoru kimi tanıtmağımız vacibdir. Hesab edirəm ki, sərgi bunun üçün daha yaxşı imkanlar yaradır. Sərginin ilk günündə keçirilən maraqlı görüşlər tərəfdaşlıq əlaqələrinin genişlənməsinə və müştərilərin sayının artmasına ümid verir.

**Kəmalə Məsimova**
BT Techno Service, Direktor (Azərbaycan)

---



Azərbaycan bazarında yeni imkanları kəşf etmək məqsədi ilə bu gün burada olmaqdan məmnunluq duyuruq. Gələcək sərgilərə qatılmağı və bu bazarda mövcudluğumuzu davam etdirməyi planlaşdırırıq.

**Aleksandr Al Kadı**
Microval, Direktor (Fransa)

---



Sərgidə ilk dəfə iştirak etmirik. Şirkətimiz Azərbaycanla əməkdaşlıq edir, burada tərəfdaşlarımız var. Buna baxmayaraq, dərman preparatlarımızı tanıtmaq və Azərbaycanda əməkdaşlıq formalarını genişləndirmək üçün əlaqələr qurmaqda maraqlıyıq.

**Alina Maksimova**
Sotex, İxrac şöbəsinin assistenti (Russia)

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ Beauty



Bütün istehsalımızın əsas şərti insan sağlamlığına qayğıdır. Ümid edirik ki, «Beauty Azerbaijan» sərgisində ekspozisiyamız ziyarətçilərin diqqətini cəlb edəcək, onlar tərəfindən bəyəniləcək və perspektivdə maraqlı olacaq. İnanırıq ki, bu sərgi bizi təmizlik kateqoriyasında daha böyük uğurlara aparacaq.

**Qızxanım İsmayılova**
Azersun Holdinq,  brend menecer (Azərbaycan)

---



Artıq müxtəlif şirkətlərin təchizatçıları ilə tanış olmuşuq. Qonaqların çoxu məhsullarımızla maraqlandılar. Ümumiyyətlə, hesab edirəm ki, bu cür sərgilər olduqca faydalıdır. Yeni alıcılar və biznes tərəfdaşları ilə tanış olmaq imkanını təmin edən ixtisaslaşdırılmış tədbirlərdə iştirak etmək çox vacibdir.

**Regina Valeyeva**
Mixsoon, Beynəlxalq satışlar üzrə menecer (Cənubi Koreya)

---



«Beauty Azerbaijan» sərgisindən gözləntilər Bakıda tərəfdaşların axtarışı ilə bağlıdır. Məhsullarımız premium seqmentdə olduğundan dırnaq xidməti ustalarının sahəsini genişləndirməyə çalışırıq. Bundan əlavə, qadınlara şirkətimizin keyfiyyətli məhsullarını təqdim etmək istəyirik. Məqsədimiz sərgidə ortaqlar tapmaq, müqavilə bağlamaq və gələcəkdə Azərbaycanda səmərəli əməkdaşlıq etməkdir.

**Yekaterina Kuznetsova**
Termish, Təsisçi və direktor (Rusiya)

---



«JEANMISHEL» kosmetikasının Bakıya tədarük edilməsi üçün sərgidə öz brendimizi Azərbaycan bazarına təqdim etməyi və digər ölkələrlə tərəfdaşlıq əlaqələri bağlamağı qarşımıza vəzifə qoymuşuq. Bundan əlavə, daha yaxşı keyfiyyət axtarışında olaraq həmişə düzgün xammal tədarükçüləri ilə maraqlanırıq.

**Alina Tarasova**
Jeanmishel, Direktor (Rusiya)

# SƏRGİNİN İŞGÜZAR PROQRAMI




## SƏRGİNİN İŞGÜZAR PROQRAMI ÇƏRÇİVƏSİNDƏ 36 SPİKERİN AKTUAL MÖVZULAR ÜZRƏ SESSİYALARI KEÇİRİLİB:



- Bakteriologiyada avtomatlaşdırma və yeni texnologiyalar;
- Sterilizasiyada beynəlxalq keyfiyyət standartları
- Qidalanma və Xərçəng xəstəliyi;
- Minimal invaziv cərrahiyyədə yeniliklər;
- Allergik konyuktivitlərin diaqnostikası və müalicəsinə yeni yanaşma;
- Tibb müəssisələrində tətbiq edilən islahatlar;
- Azərbaycanda transplantologiyanın inkişafı;
- Hematoloji xəstəliklərdə sümük iliyi transplantasiyası;
- Laboratoriyada yeniliklər;
- TeleTibb sistemlərinin gələcək inkişafı;
- Tibb və Süni İntellekt. İmkanlar və perspektivlər;
- Müasir tibbdə innovasiyalar: İnsan orqanlarının 3D printerdə çap edilməsi, kök hüceyrələrin tətbiqi.









# B2B GÖRÜŞLƏR



Sərgilər çərçivəsində eyni anda bir neçə əsas distribwtorlarla işgüzar danışıqlar aparmaq üçün əlavə imkan yaradan «B2B» formatlı görüşlər keçirilib.









# AXŞAM ZİYAFƏTİ
















medinex

## Medinex –
Azərbaycanda tibb və səhiyyə sahələrini əhatə edən ən mühüm kompleks tədbir, həmçinin istehsalçılar, distributorlar və sahə mütəxəssisləri görüş yeridir

# 31 OKTYABR – 2 NOYABR, 2024
**BAKI EKSPO MƏRKƏZİ**








## SƏRGİ BÖLMƏLƏRİ

- Tibbdə informasiya texnologiyaları
- Tibbi texnika və avadanlıq
- Tibbi məhsullar
- Dərman vasitələri, vitaminlər və bioloji aktiv əlavələr
- Ortopediya
- Stomatologiya, stomatoloji avadanlıq və alətlər, stomatoloji xidmətlər
- Optika və oftalmologiya
- Pediatriya və ixtisaslaşmış pediatrik xidmətlər
- İnnovativ laboratoriya avadanlıqları və texnologiyaları
- Farmasevtik avadanlıq
- Tibb müəssisələri və apteklər üçün avadanlıq
- Tibbi turizm
- Yaşlı nəsil üçün məhsul və xidmətlər
- Diyetologiya
- Tibbi təhsil
- BeFit – Sağlam həyat tərzi
- Sanitar nəqliyyat
- Tibbi mebel

www.medinex.az

medinex_azerbaijan  MedinexAzerbaijan  #Medinex

**RƏSMİ DƏSTƏK**

İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİ

TƏBİB

TİBBİ ƏRAZİ BÖLMƏLƏRİNİ İDARƏETMƏ BİRLİYİ (TƏBİB)

medinex

**31 OKTYABR –**
**2 NOYABR, 2024**
**BAKI EKSPO MƏRKƏZİ**



27-ci Azərbaycan Beynəlxalq

# TİBB İNNOVASİYALARI SƏRGİSİ

Təşkilatçılar

ceo caspian event organisers
caspian event management
icaevents

Tel.: +994 12 4041000
+994 55 2241000
E-mail: medinex@ceo.az

www.medinex.az

medinex_azerbaijan MedinexAzerbaijan #Medinex